

***Ayaz Arabaçı***

# ŞƏHİDİM

***Qeyrətini hər məqamda duyurdun,***
***Cəbhələrdə qanı qanla yuyurdun,***
***Bu torpağın, bu vətənin, bu yurdun,***
***Dar günündə yaraq olan şəhidim.***

***Zəfərlərin başla-canla yazılmış,***
***Uca namla, uca şanla yazılmış,***
***Tariximə qızıl qanla yazılmış,***
***Ən qiymətli varaq olan şəhidim.***

***Zərrə qədər qürurundan enməyən,***
***Öz andından, öz sözündən dönməyən,***
***Ürəyinin alovları sönməyən,***
***Öləndə də çıraq olan şəhidim.***

***Qaşlarının arasından öpürəm,***
***Tellərinin qarasından öpürəm,***
***Ürəyinin yarasından öpürəm,***
***Son nəfəsdə bayraq olan şəhidim.***

***Torpaq üçün, vətən üçün yox bazar,***
***Bu dastanı sənin kimi kim yazar,***
***Toy otağı ovuc boyda dar məzar,***
***Toy libası torpaq olan şəhidim.***

***Heykəlləşdin vətənin bir daşında,***
***Ömrün fidan, ömrün çiçək yaşında,***
***Ərənliyin , kişiliyin başında,***
***Qeyrət olan- papaq olan şəhidim.***